Tarix və onun problemləri, № 3 2014

**ƏLI XUDADUST**
*AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun dissertantı*
*e-mail: karshenas110@yahoo.com*

# DÜNYADA VƏ REGIONDA QAÇAQMALÇILIQ ƏLEYHINƏ MÜBARIZƏ ÜSULLARI

***Açar sözlər:*** qaçaqmalçılıq, metod, mübarizə üsulu, düna, region
***Ключевые слова:*** контрабанда, метод, методы борьбы, мир, регион.
***Key words:*** contraband, method, struggle ways, world, region

Qaçaqmalçılıq fenomeninin yaranmasına həm iqtisadi və həm də qeyri iqtisadi amillər təsir göstərir və hər il bu fenomen ilə mübarizə üçün bir çox maddi və humanitar kapitallar sərf edilir. Bu fenomeni araşdırmaq üçün onu yaradan amillərə kompleks yanaşamq tələb olunur. XVII əsrdə İngiltərənin tətbiq etdiyi sərt vergi tədbirləri nəticəsində qeyri - rəsmi fəaliyyət növü olan qaçaqmalçılıq yayılmağa başladı və indiyə qədər bir çox ölkələr onun kökünü kəsmək və ya minimuma endirmək üçün hələ də onunla mübarizə aparırlar. Müasir dünyada qaçaqmalçılıq xüsusi məhsullara aid deyil və qaçaqmalçılıq məhsullarının əhatə dairəsi çox böyümüşdür. İnsan, narkotik maddələr, yanacaq, neft, qaz, benzin, dərman, silah, spirtli içkilər və daha onlarla məhsulların qaçaqmalçılığı geniş yayılaraq ölkələr üçün sosial – iqtisadi əngəllər yaradırlar. Dünyanın 61 ölkəsinə aid verilən dünya statistikasına görə bu ölkələrdə mövcud olan bütün qaçaqmalçılıq məhsullarının ümumi dəyəri 136/6 milyard dollara bərabərdir.

Bu arada qeyd edək ki, heyvan və təbii resursların qaçaqmalçılıq məhsullarının dəyəri 55/7 milyard dollar, insan qaçaqmalçılığı 42/53 milyard dollar, istehlak məhsulları 34 milyard dollar və silah alveri isə 4/1 milyard təşkil etmişdir. (1, s. 86)

**Valyuta bazarına nəzarət metodu**

Valyutanın cəzb edilməsi və toplanması üçün mühüm üslublardan biri də "valyuta müqaviləsi sistemi" adlanır. Müxtəlif məqsədlərlə planlaşdırılan bu sistem ötən illər ərzində bir çox ölkələrdə istifadə edilmişdir. Hər bir ölkənin iqtisadi strukturuna görə müxtəlif nəticə və təsirlərə malik olmuşdur. "Valyuta müqaviləsi" sənədi vasitəsi ilə ixrac edən müqavilədə qeyd edilən müddət ərzində müəyyən məbləğdə olan valyutanı lisenziyası olan banklardan biri vasitəsi ilə valyuta əməliyyatı ilə banka təqdim edir və bunun qarşılığında valyutanın alınması haqqında bildiriş əldə etməyi öhdəsinə götürür. Banka satılan valyuta mərkəzi bank və ya dövlətin digər nümayəndəsi vasitəsi ilə elan edilən rəsmi alış məzənnəsi əsasında həyata keçirilir. Sənədin məzmunundan göründüyü kimi valyuta müqaviləsi ixracdan əldə edilən valyutanın toplanmasından əlavə ixracın lisenziyası və qeydə alınması funksiyası oynamaqla yanaşı iqtisadi qurumların əlində siyasət həyata keçirtmə vasitəsi hesab edilir. Valyuta müqaviləsində əmtəənin xalis və qeyri xalis çəkisi, bağlamaların sayı, daşımanın başlanğıc və son nöqtəsi, pul dəyəri və məhsul dəyəri kimi terminlər yer almışdır. Bu sənəddə habelə müqavilənin müddəti, valyutanın daxili pula çevrilməsi qiyməti və təhvil verilən valyuta miqdarı əsas rol oyanıyr. Bu üç faktor müxtəlif sistemlərin meydana gəlməsinə səbəb olmaqla valyutanın toplanması, kapital axınının qarşısının alınması və habelə ixrac edilən qaçaqmalçılıq məhsullarının qarşısını almaqda fərqli nəticələr yarada bilər. (2, s. 84) Buna görə də valyuta

müqaviləsinə aid olan qanunların təyin edilməsi dövlətlərin valyuta siyasətinin mühüm elementləri hesab edilir ki, həmin hədəflərin bəzisi qısaca olaraq aşağıdakı kimidir:

- Xüsusi bir əmtəə növünün ixracını dəstəkləmək və ya uzatmaq;
- Məhsulun ixracından əldə edilən sənəd kimi valyuta müqaviləsi;
- İxracatın cəzalanması həddinin kontrolu üçün;
- İxrac qarşılığında idxal istiqamətində bir vasitə kimi;
- Zamin və ixracı sığortalayan sənəd kimi;
- Kapitalın xaric olmasının qarşısını almaq.(3, s. 91)

**Avropa İttifaqında mübarizə üsul və metodları:**

Avropa İttifaqının genişlənməsini və digər ölkələrin də ona qoşulması nəticəsində qaçaqmalçılıq ilə mübarizə daha da mütəşşəkkil xarakter almağa başlayır. Qaçaqmalçılığın həyata keçdiyi ən geniş sahələrdən biri də Litva, Belarus və Rusiyanın Kalinqrad ərazisidir ki, həmin ərazilər Avropa ittifaqı ilə 902 kilometrdən artıq sərhədlərə malikdir. Bunu göz önünə gətirdikdə qaçaqmalçılıq məhsullarının Avropa iqtisadiyyatına yaxşı heçbir şey vəd etmədiyini görürük. Lakin Avropa ittifaqı bu fenomenə qarşı ciddi mübarizə aparır və Avropa ittifaqına daxil olan ölkə isə Avropa ittifaqının qəbul etdiyi qərarları yerinə yetirməyi və onun hüdudlarından kənarda isə qaçaqmalçılıq ilə mübarizə etməyi öhdəsinə götürür.

Qaçaqmalçılıq məhsullarının hər birinə qarşı xüsusi araşdırma və diqqət tələb edildiyi üçün bu zaman daha çox diqqət məhsulların vurduğu ziyana görə müəyyən edilir. Avropa ittifaqının siyasətini müəyyənləşdirənlər isə qaçaqmalçılıq məhsulları ilə mübarizə sualları təqdim edərkən daha çox siqaret, yanacaq,spirtli içkilərə (çünki dövlətlər ən çox vergini bu sahələrdən əldə edirlər) və insan qaçaqmalçılığına ( Avropaya gələn qeyri - qanuni miqrantların sayının artmasına görə) diqqət ayırırlar. Eyni halda bu qeyri - rəsmi fəaliyyətin azaldılması istiqamətində də bir sıra ümumi siyasətlər həyata keçirirlər. Bu ümumi addımlar və eləcə də bir sıra xüsusi məhsullar üçün hazırlanan xüsusi qanunlar ümumilikdə Avropa ittfaqının qaçaqmalçılıq ilə mübrizədə atdığı addımların göstəricisidir.

Qısaca formada qaçaqmalçılığın yayılması ilə mübarizədə Avropa birliyinin atdıqları addımlar və siyasətlər aşağıdakı kimidir:

- Qaçaqmalçılığın kökü tələbatda olduğu üçün Avropa ittifaqı həmin tələbatı ödəmək üçün çıxış yolu tapmalıdır. Tələbatı ödəmək üçün irəli sürülən çıxış yolları münasib olsa da, onların icrası çox çətin məsələ idi. Tələbata aid olan ən aşkar sektor vergilər üzrə manevrdən ibarət idi. Vergilər isə İngiltərədə XVII əsrdə qaçaqmalçılığın meydana çıxmasının başlıca səbəbi olmuşdur. Buna görə də Avropa ittifaqında vergilərin artmasına daha çox diqqət edilir;
- Çünki əgər vergilərin artrılması səmərəli vasitə idisə, o zaman belə bir sual meydana çıxır ki, bu vergilər qaçaqmalçılığın artmasına səbəb olmayacaqmı? Ona görə də, bu cür mənfi nəticələrə gətirib çıxarmasın deyə həmin vergi artımlarını tədrici olaraq həyata keçirirlər. Avropa birliyinin yürütdüyü siyasətlərdən biri də vergilərin tədrici artırılmasıdır. Bu sahədə dəqiq siyasətlərin həyata keçirilməməsi, bir sıra əlavə problemlər yarada bilər. Buna görə də Avropalı siyasətçilər həmişə bu informasiyaların axtarışında olmuşlar;
- Avropa ittifaqında siyasətçilərin diqqət mərkəzində olan məsələlərindən biri də həmin istiqamətdə istehlakçılarla maarifləndirmə işlərinin aparılmasıdır;

Qaçaqmalçılıq məhsullarının ölkə iqtisadiyyatına vurduğu ziyanlar haqqında Avropa ittifaqına üzv dövlətlər daima öz vətəndaşları arasında təbliğat işi aparmışlar. Onların bu istiqamətdə irəli sürdükləri “qaçaqmalçılıq və yeraltı səltənət iqtisadiyyatı üçün sərf edilən bir pul vahidi təşkilatlanmış cinayətkarlıq üçün sərf edilmiş pul vahidididir” şüarını misal göstərmək olar. Habelə 2004- 2008- ci illər ərzində insanların qaçaqmalçılığa qarşı olan baxışlarını

müqayisə etdikdə məlum olmuşdur ki, insanların qaçaqmalçılıq fenomeninə təsir göstərən amillərə nisbət məlumatı artmağa başlamışdır. Habelə istifadəçilərin bir çoxu həmin məhsulların keyfiyyətinin aşağı olması və sağlamlığa ziyanlı olduğunu bildirmişlər;

- Avropa ittifaqının atdığı mühüm addımlardan biri də tələbat tərəfləri barəsində ümumi və xüsusi sektor arasında əməkdaşlığın artırılmasından ibarətdir. Dövlət və özəl sektorlar, bir- biri ilə əməkdaşlıq üçün geniş imkanlara malikdirlər. Lakin bu əməkdaşlığın həyata keçməsi üçün qanuni tənzimləmələr lazımdır. Avopa ittifaqı da öz növbəsində bu əməkdaşlıqlar qarşısında olan qanuni maneələri aradan qaldırmağa çalışmışdır;

Qəbul edilən Avropa ittifaqının konstitusiyasında dövlət və xüsusi sektorun əməkdaşlıqlarını qanuniləşdirmək dəstəklənir. Bu iki sector arasında sağlam rəqabətlərdə münasib əməkdaşlıq qanunlarının mövcudluğu məhsulların keyfiyyətinin artmasına və bu iki sektora xidmət etməyə səbəb olmuşdur. Bu addımla dövlət və özəl sektorlar da öz haqqlarına çatacaq və dövlət də öz rüsumunu alaraq özəl sketorun fəaliyyətinə icazə verəcəkdir. Bu isə qaçaqmalçılıq və yeraltı səltənətin fəaliyyətlərinin qarşısını alacaqdır;

- Avropa ittifaqında qaçaqmalçılıq fenomeni ilə mübarizə aparmaq üçün uğurlu yollardan biri də qaçaqmalçılıq cəzalarının artırılması və daha mökəm qayda- qanunların əsasını yaratmaqdır. Qaçaqmalçılıq ilə məşğul olan şəxslər həmişə qaçaq riskini və xərclərin miqdarını hesabladığı üçün bu halda onu yerinə yetirməyə maraqlı olmayacaqlar. Əgər tətbiq edilən cərimənin miqdarı verginin miqdarından az olarsa o zaman qaçaqmalçı vergidən yayınaraq, tutulduğu vaxt cərimə verməyə üstünlük verəcəkdir. Avropa ittifaqında vahid informasiya bankının yaradılması da qaçaqmalçılıq riskinin artmasına kömək etmişdir;

Digər tərəfdən Avropa birliyində qaçaqmalçılıq məhsulunun istifadə edilməsi qaçaqmalçılığı özü kimi qanun tərəfindən təqib edildiyinə görə həmin məsələ qaçaqmalçılığa olan tələbatı azaldır və nəticədə isə qaçaqmalçılıq məhsullarının daxil olmasına yaranan stimul aradan qalxmış olur;

- Avropa ittifaqının qaçaqmalçılığın qarşısını almaqda həyata keçirdiyi uğurlu addımlar sırasında sistemlər, istehsalın fərqləndirilməsi və yoxlamanın artırılması, icra, qanun və meyarlarının yaxşı işləməsinə nəzarət, qaçaqmalçılığın kəşf edilməsi sahəsində lazım olan addımların həyata keçirilməsi, qaçaqmalçılıq fəaliyyətlərində iştirak etmək məqsədi güdən istehsalçılar, pərakəndə satıcılar və topdansatışların riskini artırmaq üçün Avropa ittifaqı ölkələri arasında mövcud olan sərhədlərdə mübadilə edilən məhsullara aid informasiya mübadiləsini artırmaq;

- Qaçaqmalçılığın yaranmasına təkan verən məsələlərdən biri də infilyasiyadır. Bu fenomen son illərdə Avropa ittifaqında nəzərə çarpacaq səviyyədə olmuş və 2007-ci ildə 2/3 % olmuşdur. Qiymətlərin meyarında dəyişiklik faizi 1992- ci ildən etibarən çox mülayim və orta hesabla 2/5 % olmuşdur;

- Vergi siyasətləri və qiymət siyasətləri arasında olan müvazinət Avropa birliyində qaçaqmalçılıq vəziyyətinin yaxşılaşmasının dəlillərindən hesab edilir. Bu siyasətlərin balanslaşdırılması nəticəsində biri digərini vurub sıradan çıxara bilmir və qaçaqmalçılığa olan stimulun azalmasına gətirib çıxarır. Bu isə qaçaqmalçılıq ilə mübarizədə ən effektli yollardan biridir. Lakin bu məsələni icra etmək çox çətin olduğu üçün Avropa ittifaqı onun həyata keçməsi üçün ciddi cəhdlə fəaliyyət göstərir;

- Qaçaqmalçılıq adətən bir ölkənin digər ölkələr ilə olan sərhədləri vasitəsi ilə həyata keçirildiyi üçün Avropa ittifaqı sərhəd vergi siyasətləri arasında uyğun inkişaf istiqamətində bir sıra addımlar atmışdır. Avropa ittifaqının daxili sərhədləri arasında müştərək məzənnə qiymətləri və vergi siyasətləri qaçaqmalçılıq fəaliyyətinin azaldılması istiqamətində böyük bir

addım olmuşdur. Hətta qonşu ölkələr bir məzənnə üzərində razılaşma həyata keçirə bilmədikdə onlar vergi yayınmasından qaçmaq üçün qabaqlayıcı addımlar atmaq istiqamətində əməkdaşlıq edirlər;

- Gömrük işçiləri və məmurların tamahkarlığının qarşısını almaq məqsədilə onlar üçün ağır cərimələr tətbiq edilməsi nəticəsində Avropa ittifaqında qaçaqmalçılığa olan stimulun azalmasına nail olmuşlar. Buna görə də əmtəənin təbiəti və keyfiyyəti sahəsinə düzgün olmayan ifadə vasitəsi ilə qaçaqmalçılıq ehtimalı azalmış olur;
- Avropa ittifaqının qaçaqmalçılıq ilə mübarizə üsullarından biri də sərhəd zonalarında yerləşən əhalinin məşğulluğunu artırmaqdan ibarətdir. Avropa ittifaqının siyasətçilərinə görə öz sərhədləri üçün dəmir divarlar hörmək əvəzinə sərhəd zonalarında qeyri - rəsmi sektorlarda məşğulluğun qarşısını almaq üçün məşğulluq yaratmaq daha faydalı olar. (4, s. 113)

**Avropa İttifaqında siqaret qaçaqmalçılığı ilə mübarizə:**

Avropa ittifaqı siqaret qaçaqmalçılığı fenomeni ilə mübarizə məqsədilə bir sıra addımlar atmağa başlamışdır ki, həmin addımlar aşağıdakılardan ibarətdir:

- Qiymət siyasətləri və vergilər arasında uyğunluq vasitəsi ilə siqaret qaçaqmalçılığı üçün stimulların azalması. Bu çıxış yolu çox effektiv olsa da, lakin onun icrası çox çətin məsələdir. Çünki pərakəndə qiymətlər üçün bir çox dəlillər mövcuddur və siqaret istehsalçıları üçün müxtəlif millətlər müxtəlif qiymətlər yaradırlar. Ona görə də Avropa ittifaqının atdığı mühüm addımlardan biri də bundan ibarətdir ki, siqaret üçün vahid qiymət siyasəti yürüdülsün. Çıxış yolunun qarşısında duran problemlərdən biri də qonşu ölkələrdə siqaret üçün müxtəlif vergi məzənnələrinin olmasıdır. Siqaretin vergi qiymətlərinin uyğunlaşdırılması üçün regional razılaşma bu çıxış yolunu effektiv etmək üçün Avropa ittifaqının atdığı addımlardan biridir.
- Pərakəndə satış və daşımaya nəzarət vasitəsi ilə tənbəki təqdim edilməsini azaltmaq. Misal üçün dövlət işçilərinin pozulmasına nəzarət edilməsinə işarə etmək olar.
- Qaçaqmalçılıq məhsullarından istifadə etməmək üçün istehlakçıları həvəsləndirmək və əhalinin ümumi məlumatlarını yüksəltmək vasitəsi ilə qaçaqmalçlıq tənbəkisi üçün tələbatı azaltmaq.
- Qanuni təqib və qanuni cəzaya aid olan qanunların artırılması yolu ilə qaçaq cəzalarının sərtləşdirilməsi və qətiyyətini artırmaq.
- Avropa ittifaqında siqaret sənayesi dövlətlərin inhisarındadır. Lakin son illərdə dövlətin inhisarından çıxması və özəl sektorunda bu işlə məşğul olması nəticəsində Avropa birliyi ölkələrində müəyyən həddə qaçaqmalçılıq problemləri azalmağa başlamışdır.
- Avropa ittifaqının həyata keçirdiyi siyasətlərlə yanaşı tütün, spirtli içki və siqaret qaçaqmalçılığının istehsalının azalması istiqamətində səhiyyə təşkilatlarının da mədəni və səhiyyə təbliğatlarının da böyük effekti olmuşdur.(5, s. 96)

**Avropa İttifaqında yanacaq qaçaqmalçılığı və onunla mübarizə siyasəti**

Avropa ölkələrində yanacağın qiymətinin yüksək olması, dünya qiymətlərindən təsirlənməsi və istehlaka qoyulan yüksək vergi tarifləri yanacaq qaçaqmalçılığına olan stimulu artırmış olur. Avropa ittifaqı ölkələri 2003- cü ildə qaçaqmalçılığın azaldılması məqsədi ilə enerji istehlakına olan vergi ödənişini azaltdılar. Bu dəyişikliklər birbaşa yanacaq və elektrik sahəsində qaçaqmalçılığa olan stimulun azalmasına gətirib çıxardı.

Avropa ittifaqının yanacaq maddələrinin qaçaqmalçılığı ilə mübarizə üsullarından biri də nəzarəti gücləndirməklə yanaşı həmin ölkələrin neft, qaz və benzinə alternativ olacaq yanacaqlardan və ya həmin yaşıl yanacaqlardan istifadəyə tərəf meyilləndirməkdir. Bu isə qaçaqmalçılığı azaltmaqla yanaşı həm də ətraf mühitin qorunmasına gətirib çıxarır.

Yekun olaraq bunu deyə bilərik ki, əmtəə qaçaqmalçılığı mürəkkəb bir fenomendir. Bu fenomenin təsirləri yalnız iqtisadi təsirlər ilə yekunlaşmır, bəlkə nəzərə çarpacaq dərəcədə mədəni, siyasi və sosial təsirlərə də şamil edilir. Bu fenomenin qarşısını almaq məqsədi ilə ilk öncə onun doğurduğu mənfi təsirlərlə tanış olmaq lazımdır. Qeyd edildiyi kimi bu fenomenin ölkə iqtisadiyyatına vurduğu ziyanlar böyükdür. Qaçaqmalçılıq fenomeninin təsirlərindən əlavə onu meydana gətirən səbəblərlə tanışlığın da əhəmiyyəti böyükdür. Bütün ölkələrin bu problem ilə mübarizə apardığını nəzərə alsaq, deməli yuxarıdakı nümunələri araşdırmaqla İran islam respublikasının bu sahədə səmərəli çıxış yolları əldə etməsinə yardım etmiş olarıq. Uğurlu nümunələrdən biri də Avropa ittifaqının seçdiyi yoldur. Geniş ərazilərinin olmasına baxmayaraq, müşahidələr göstərir ki, orada qaçaqmalçılığa aid olan göstəricələr çox aşağıdır və proses daha da yaxşılaşmağa doğru gedir. (1, s. 86)

Buna görə də İranda qaçaqmalçılıq fenomeninin durumuna diqqət etdikdə və bu fenomenin iqtisadiyyat, siyasət və cəmiyyətə olan təsirlərini nəzərə aldıqda bu fenomen ilə qarşılaşmaq üçün aşağıdakı çıxış yolları təklif edilir:

- Dövlət qaçaqmalçıların öz kapitalını təhlükədə görməsi və ona qarşı stimulun azalması üçün həmişə qaçaqmalçılıq üçün yaranan imkanları aradan qaldırmalı və şəraiti çətinləşdirməlidir. Həqiqətdə elə bir şərait yaratmalıdır ki, qaçaqmalçı artıq bu şərtlər daxilində qaçaqmalçılığın ona sərf etmədiyini görsün. Bu iş çətin qayda- qanunlar yaratmaq və onların icrasına zəmanət vermək vasitəsi ilə formalaşa bilər;
- Qaçaqmalçılıq ilə mübarizə aparmaq üçün etibarlı və bacarıqlı şəxslərin iş başına gətirilməsi, məmur və işçilər arasında fəsadın azaldılması, qaçaqmalçılığın artmasında cavabdeh olan dövlət amilləri ilə mübarizə və şəffaflığın bərpa edilməsi məqsədilə ticarətdə qurumların müdaxilə üçün qadağanın yaradılması da qeyri iqtisadi mübarzіə üsulları hesab edilir;
- İqtisadi siyasətlərin həyata keçirilməsi və iqtisadi sahələrdə sağlam və layiqli müdirlərdən istifadə etmək;
- Bir sıra qonşu ölkələrlə eyni olan vergi və gömrük siyasətlərinin icrası, iqtisadi təhlükəsizlik və davranışları təmin etmək məqsədi ilə qonşu ölkələrlə uyğunluğun yaradılması və müqavilə bağlamaq;
- Daxili məhsulun istehlakına üstünlük vermək və tələbatın azaldılması mədəniyyətinin formalaşdırılması digər səmərəli addımlardan biridir. Qaçaqmalçılıq məhsulu üçün nəzərə çarpacaq tələbin mövcudluğu ölkədə qaçaqmalçılığın yayılmasının ən önəmli səbəblərindən hesab edilir. Kütləvi informasiya vasitələrində reklam etməklə məhsul üçün tələbat artmağa başlayır. Əgər tələbat olan məshulu əldə etmək üçün bir sıra məhdudiyyətlər tətbiq edilərsə, təkcə həmin məhsul üçün tələbat azalmır, bəlkə də bu vəziyyət əmtəə qaçaqmalçılığı üçün əlverişli şərait yaratmış olur. Buna görə də kütləvi informasiya vasitələri qaçaqmalçılıq məhsullarından isifadə etməyi məzəmmət etməli və onun ölkə iqtisadiyyatına vurduğu ziyanlar istiqamətində təbliğat aparmalıdır;
- Qəfil vergi artırılmalarında dəyişiklik etməkdən çəkinməli;
- Daxili istehsalın keyfiyyətinin yüksəldilməsi də qaçaqamlçılıq kimi qeyri rəsmi fəaliyyətlərin ölkəyə daxil olmasının qarşısının alınmasında səmərəli yollardan biri hesab edilir;
- Qaçaqmalçılığın azaldılması yollarından biri də subsidiyalardan keçir. İranda verilən subsidiyalar nəticəsində qiymətlər qonşu ölkələrin qiymətlərindən fərqlənmiş olur. Bu cür qaçaqmalçılığın bariz nümunəsini biz benzində görürük. Benzinin qiymətinin qonşu ölkələrlə bərabər olması üçün bu sahəyə yatırılan subsidiyaları azaltmaq məsləhətdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Tacuzzəman Daneş. Kriminalist kimdir və Kriminalogiya nədir? Tehran: Keyhan nəşriyyatı, 2002
2. Əmtəə və valyuta qaçaqmalçılığı ilə mübarizədə mərkəzi qərargahın informasiya statistikası və araşdırma idarəsi, c.III, 1386
3. Əli Hüseyn Nəcəfi Əbrənd Abadi. Kriminalistika fənnin müddəaları.Tehran:2002
4. Əmtəə və valyuta qaçaqmalçılığı ilə mübarizədə mərkəzi qərargahın informasiya statistikası və araşdırma idarəsi, Gizlin iqtisadiyyat üzrə məqalələr toplusu, qaçaqmalçılıq ilə mübarizə sahəsində həyata keçirilən siyasət, c.IV 1387
5. 1993-cü il tarixli İranın idxal və ixrac qayda-qanunları.

**АЛИ ХУДАДУСТ**

## МЕТОДЫ БОРЬБЫ С КОНТРАБАНДОЙ В МИРЕ И В РЕГИОНЕ

Для того чтобы исследовать феномен контрабанды, требуется комплексный подход к порождающим её факторам. В настоящей статье исследуются метод контроля над валютным рынком, способы и методы борьбы в Европейском Совете, борьба Европейского Совета с контрабандой сигаретной продукции, борьба Европейского Совета с контрабандой топлива, и политика в отношении её, а также другие проблемы.

**ALİ KHUDADUST**

## COUNTER-CONTRABAND METHODS IN THE WORLD AND REGION

To research the phenomenon of smuggling compleks aproach to its aspects is needed. In this article you will meet a rasearch of money market control method, ways and methods of control in European Union, cigarette contraband struggle methods in EU, fuel contraband struggle policy in EU etc.

***Rəyçilər: t.ü.f.d. V. Mustafayev, t.e.d. İ.Məmmədov***

***AMEA Z.Bünyadov adına Şərqşünaslıq institutunun 22 may 2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №4).***